

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 45 (21.455)

*8 mart 2016-cı il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Gürcüstanın xarici işlər naziri Mixeil Canelidzeni qəbul edib.

Azərbaycana ilk rəsmi səfərindən məmnunluğunu bildirən Mixeil Canelidze iki ölkənin müvafiq qurumları tərəfindən birgə işlərin və həyata keçirilən bütün layihələrin fəal şəkildə davam etdirildiyini söyləyib.

Ölkələrimizin xarici işlər nazirlərinin əlaqələrinin mütəmadi xarakter daşıdığını deyən Prezident İlham Əliyev Azərbaycan və Gürcüstan Xarici İşlər nazirlikləri arasında əməkdaşlığın önəmini qeyd edib. Azərbaycan ilə Gürcüstan arasında bir sıra məsələlərin uğurla həll edildiyini və ölkələrimizin bir-birinə daha da yaxınlaşdığını bildirən dövlətimizin başçısı özünün Gürcüstana ötənilki uğurlu rəsmi səfərini xatırlayıb. Əməkdaşlığımızın fəal şəkildə davam etdirildiyini vurğulayan Prezident İlham Əliyev əlaqələrimizin siyasi, iqtisadi, energetika, humanitar sahələrdə və eləcə də çoxtərəfli formatda daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu deyib.

Dövlətimizin başçısı Gürcüstanın xarici işlər naziri Mixeil Canelidzenin Azərbaycana səfərinin ölkələrimiz arasında cari il üçün birgə tədbirlərin proqramının nəzərdən keçirilməsi baxımından yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirib.

## Naxçıvan Muxtar Respublikasının fəxri adlarının verilməsi haqqında
## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin
## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında səhiyyə və təhsil sahələrində səmərəli fəaliyyətlərinə görə:

Əhmədova Şəhla Hüseyn qızına

Əliyeva Gültəkin Budaq qızına – **"Əməkdar həkim"** fəxri adı;

Rzayeva Tahirə Həmid qızına – **"Əməkdar müəllim"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 mart 2016-cı il*

## Naxçıvanda 2016-cı ilin ilk iməciliyi keçirilmişdir





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"İnsanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitin qorunmasıdır".***

Xalqımız tarixən təbiətin, ətraf mühitin qorunması qayğısına qalmış, baharın gəlişini səliqə-sahman yaratmaqla, yaşıllıqlar salmaqla qarşılamışdır. İşgüzarlıq, təbiətə qayğı və torpağa bağlılıqdan qaynaqlanan bu xeyirxah əməllər bu gün də yaşadılır.

Martın 5-də Naxçıvan Muxtar Respublikasında iməciliklər keçirilmiş, təmizlik-abadlıq işləri görülmüş, yeni yaşıllıq zolaqları və meyvə bağları salınmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri Naxçıvan-Sədərək avtomobil yolunun kənarındakı püstə bağında, eləcə də Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolunun ətrafında keçirilən iməcilikdə iştirak etmişlər.

Uzunoba Su Anbarından yeni su xəttinin çəkilməsi və Kəngərli rayonu ərazisində suvarma şəbəkəsinin qurulması uzun müddət əkilməyən bu torpaqları yenidən əkin dövriyyəsinə qatmışdır. Püstə bağı üçün 100 hektar ərazi ayrılmış, meliorativ tədbirlər görülmüş, ötən ilin payızında iməciliklər yolu ilə 50 hektarda 20 minə yaxın püstə tingi əkilmişdir. Bu il əlavə 50 hektar ərazidə püstə tingləri əkiləcək, damcılı suvarma sistemi qurulacaqdır. İməcilik iştirakçıları ərazidə 1000 ədəd püstə tingi əkmiş, ötən il salınan püstə bağına aqrotexniki qulluq göstərmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, püstə bağında yeni tinglər əkmişdir. Ali Məclisin Sədri püstə bağında əkin işlərinin davam etdirilməsi və bağın ətrafında qoruyucu yaşıllıq zolağının salınması barədə tapşırıqlar vermişdir.

Həmin gün muxtar respublika ərazisində iməciliklər yolu ilə 23 minə yaxın ting və 18 mindən artıq bəzək kolları əkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Martın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Serhan Aktoprakla görüşmüşdür.

Ali Məclisin Sədri Naxçıvanla Beynəlxalq Miqrasiya Təşkilatı arasındakı əlaqələrdən danışmış, bu sahədəki xidmətlərinə görə Serhan Aktopraka təşəkkür etmişdir. Beynəlxalq Miqrasiya Təşkilatı tərəfindən muxtar respublikada kəhriz sistemlərinin bərpası layihəsinin həyata keçirildiyini, həmin dövrdə təşkilat nümayəndələrinin, eləcə də İsveçrə Konfederasiyası Prezidentinin Naxçıvana səfər etdiklərini xatırladan Ali Məclisin Sədri əməkdaşlığın genişləndirilməsinin, xüsusilə miqrasiya sahəsində təlim proqramlarının və kəhrizlərin bərpası layihələrinin davam etdirilməsinin əhəmiyyətini vurğulamışdır.

Səmimi qəbula görə Ali Məclisin Sədrinə minnətdarlıq edən Serhan Aktoprak Beynəlxalq Miqrasiya Təşkilatı ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin inkişaf etdirilməsi üçün potensialın olduğunu bildirmiş, bu istiqamətdə səyini əsirgəməyəcəyini qeyd etmişdir.

Görüşdə əlaqələrin gələcək inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə “Naxçıvan qadınları müstəqillik illərində” mövzusunda tədbir keçirilmişdir





Martın 7-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə “Naxçıvan qadınları müstəqillik illərində” mövzusunda tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov əvvəlcə qadınların əl işlərindən, rəsm əsərlərindən, eləcə də qadınların müəllifi olduğu kitablardan ibarət sərgiyə baxmışdır.

Məlumat verilmişdir ki, sərgidə 72 qadının 344 rəsm əsəri və əl işi nümayiş etdirilir. Yaradıcı qadınların müxtəlif əl işləri – xalçalar, toxuma, tikmə, dekorativ tətbiqi sənət, vitraj, yandırma üsulu ilə hazırlanmış bədii sənətkarlıq nümunələri, çəkdikləri rəsm əsərləri maraqla qarşılanmışdır. Burada 64 qadının müəllifi olduğu 131 elmi və bədii ədəbiyyat, həmçinin qadınlar haqqında yazılmış kitab və jurnallar da sərgilənirdi.

Sərgi ilə tanışlıqdan sonra keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Hər bir cəmiyyətin inkişaf səviyyəsi o cəmiyyətdə qadına olan münasibətlə sıx bağlıdır. Azərbaycanda qadın adı həmişə uca tutulmuş, böyük ehtiram göstərilmişdir. Hələ orta əsrlərdə Naxçıvanda və Qarabağlarda qadın adına layiq Möminə xatın və Quti xatın türbələri ucaldılmışdır. Bunlar bənzərsiz memarlıq abidələri olmaqla yanaşı, eyni zamanda qadına münasibətin nümunəsi idi. Milli kimlik pasportumuz olan “Kitabi-Dədə Qorqud” dastanının qadın qəhrəmanları bu gün də mənəvi saflığın, sədaqətin və mərdliyin rəmzi hesab olunurlar. Belə nümunələr kifayət qədər çoxdur. Qəhrəmanlıqla dolu keçmişimizə nəzər salsaq, görərik ki, istər torpaqlarımızın müdafiəsində, milli dövlətçiliyin formalaşmasında və idarə olunmasında, istərsə də xalqımıza məxsus dəyərlər sisteminin yaşadılmasında xidmətləri olan qadınlarımıza hörmət və ehtiram əlaməti olaraq xatın, bəyim, banu və xanım kimi adlar verilərək ehtiram göstərilmişdir. Xalqımız üçün çox müqəddəs olan vətənin, torpağın və dilin ana vətən, ana torpaq, ana dili adlandırılması da Azərbaycan türklərində qadın, ana adına verilən yüksək qiymətin ifadəsidir.




Bütün bunları nəzərə alan ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Zahiri gözəlliyi ilə daxili aləminin paklığının vəhdət təşkil etdiyi, öz səbri, təmkini ilə səciyyələnən Azərbaycan qadını dəyanət və sədaqət rəmzinə çevrilmişdir. Onun şəninə dastanlar qoşulmuş, ona dahilər və qəhrəmanlar anası deyilmişdir. Tariximizin keşməkeşli səhifələrinə Azərbaycan qadını qayğıkeş ana, fitri istedada malik şair, möhkəm iradəli hökmdar, dərin zəkalı mütəfəkkir kimi öz adını həkk etdirmişdir”.***

Qeyd olunmuşdur ki, bu gün müstəqil Azərbaycanda, eləcə də onun Naxçıvan Muxtar Respublikasında dövlət-qadın siyasəti özünün inkişaf mərhələsindədir. Qadınlarımız ölkə həyatının müxtəlif sahələrində yaxından iştirak edirlər. Bu, bir tərəfdən qadın fəallığı sahəsində çoxəsrlik tarixə söykənən zəngin ənənələrlə bağlıdırsa, digər tərəfdən həyata keçirilən dövlət-qadın siyasəti və yaradılan şəraitlə bağlıdır. İngilis filosofu Stuart Mill vaxtilə yazırdı ki, “bir sivilizasiyanın səviyyəsini ölçmək istəsəniz, orada qadının həyat şərtlərinə baxın”. Həqiqətən də, ictimai münasibətlərin formalaşmasında, yeni nəslin tərbiyəsində, ailənin təməlinin möhkəmliyində qadınların müstəsna rolu vardır. Bu gün muxtar respublika əhalisinin 51 faizini təşkil edən qadınlarımız ana adını daşımaqla bərabər, həm də sahibkardırlar, dövlət qulluqçusu, həkim, müəllim, rəssam, sənətkar, deputat, beynəlxalq dərəcəli idmançılardır. Bütün bunlar onu göstərir ki, artıq muxtar respublika qadınları cəmiyyət həyatının bütün sahələrində uğurla təmsil olunurlar. Milli dəyərlərin qorunması istiqamətində də qadınlarımızın fəaliyyətləri məmnunluq doğurur. Müstəqillik illərində muxtar respublika qadınlarının əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, onların 139-u Azərbaycan Respublikasının, 117-si Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülmüşdür.

“Azərbaycan qadınının ictimai həyatımızdakı dünənki, bugünkü mövqeyi dilimizə, vətənimizə, torpağımıza, dövlətimizə, milli dəyərlərimizə və Azərbaycançılıq məfkurəsinə sədaqət nümunəsi olmuş və gələcəkdə də olacaqdır!”, – deyən Ali Məclisin Sədri bütün bunlar üçün, eyni zamanda muxtar respublikanın ictimai-siyasi həyatında fəal iştirakına görə muxtar respublika qadınlarına təşəkkürünü bildirmiş, 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik etmişdir.




Sonra Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının təltiflərinin təqdimatı olmuşdur.

Qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 12 iyun tarixli Sərəncamı ilə səhiyyənin inkişafındakı xidmətlərinə görə Naxçıvan Muxtar Respublikasından 2 qadın Azərbaycan Respublikasının “Əməkdar tibb işçisi” fəxri adına layiq görülmüş, 2016-cı il 1 mart tarixli Sərəncamı ilə ölkəmizin ictimai həyatında səmərəli fəaliyyətinə görə 1 qadın “Tərəqqi” medalı ilə təltif olunmuşdur. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 7 mart tarixli Sərəncamı ilə muxtar respublikada səhiyyənin və təhsilin inkişafındakı xidmətlərinə görə 2 qadın Naxçıvan Muxtar Respublikasının “Əməkdar həkimi”, 1 qadın isə Naxçıvan Muxtar Respublikasının “Əməkdar müəllimi” fəxri adlarına layiq görülmüşdür.

Ali Məclisin Sədri “Tərəqqi” medalının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının vəsiqə və döş nişanlarını təqdim etmişdir.

Təltif olunanlardan Gözəl Hüseynova, Vera Kuimova, Şəhla Əhmədova və Gültəkin Əliyeva əməklərinə verilən yüksək qiymətə görə minnətdarlıq etmişlər.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova tədbirdə çıxış edərək demişdir ki, son illər muxtar respublikada qadınların ictimai fəallığının yüksəldilməsi, eləcə də ahıl, tənha, xüsusi qayğıya ehtiyacı olan qadınların həyat şəraitlərinin yaxşılaşdırılması məqsədilə zəruri tədbirlər görülür. Bu gün qadınlar dövlət quruculuğunda, ictimai həyatda fəal iştirak edir, muxtar respublikamızın sosial, elmi və mədəni inkişafına öz töhfələrini verirlər. Hazırda muxtar respublika qadınlarından 1-i Milli Məclisin, 7-si Ali Məclisin deputatı, 13-ü bələdiyyə sədri, 15-i sahibkar, 22 minə yaxını Yeni Azərbaycan Partiyasının üzvüdür. 20 mindən artıq qadın səhiyyə, mədəniyyət, təhsil sahələrində, o cümlədən dövlət qulluğunda və özəl müəssisələrdə çalışır. 7 mindən çox qadın idmanın müxtəlif növləri ilə məşğul olur. Ramilə Seyidova yaradılan şəraitə görə muxtar respublika qadınları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Tədbirin bədii hissəsində Naxçıvan şəhər 3 və 11 nömrəli uşaq bağçalarının uşaqlarının ifasında kompozisiya təqdim olunmuş, Naxçıvan Dövlət Filarmoniyasının kollektivi konsert proqramı ilə çıxış etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Muxtar respublikanın bütün rayonlarında Beynəlxalq Qadınlar Günü qeyd olunub

### *Şərur rayonu*

***Şərur rayonunda Beynəlxalq Qadınlar Günü münasibətilə keçirilən tədbirdə çıxış edən İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov bildirib ki, Azərbaycan xalqı həmişə qadına, onun cəmiyyətimizin həyatında oynadığı rola, tutduğu yüksək mövqeyə böyük hörmətlə yanaşıb.***



İbrahim Məmmədov bu gün Azərbaycan qadınlarının nəinki ölkə daxilində, hətta beynəlxalq aləmdə ölkəmizin adına layiq işlər gördüklərini diqqətə çatdırıb, onların əməyinin dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb. Bildirilib ki, bu cəhətdən Şərur rayonunda yaşayan qadınlar da istisna deyil. Hazırda rayonda dövlət qulluğunda işləyənlərin 34,8 faizini qadınlar təşkil edir. Bu rəqəm təhsil sahəsində 67 faiz, səhiyyə sistemində 67,2 faiz, mədəniyyət sahəsində isə 79,6 faizdir. Qadın əməyinə verilən yüksək qiymətin nəticəsidir ki, 5 nəfər Azərbaycan Respublikasının, 6 nəfər Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, 1 nəfər Prezident mükafatçısı, 2 nəfər Azərbaycan Respublikasının, 2 nəfər Naxçıvan Muxtar Respublikasının Əməkdar səhiyyə işçisi fəxri adını daşıyır. 8 nəfər “Tərəqqi” medalı ilə təltif olunub, 2 nəfər Naxçıvan Muxtar Respublikasının Əməkdar dövlət qulluqçusudur, “Rəşadətli əməyə görə” nişanı ilə 1 nəfər təltif edilib, 4 nəfər “Ən yaxşı müəllim” müsabiqəsinin qalibi olub. Yeni Azərbaycan Partiyası rayon təşkilatında təmsil olunanların 2 min 967 nəfərini, yəni 25,5 faizini qadınlar təşkil edir.

Tədbirdə digər çıxış edənlər qadınların rayonun sosial-iqtisadi həyatında, gənc nəslin təlim-tərbiyəsində, səhiyyə, mədəniyyət və digər sahələrdə fəal iştirakından danışıblar.

Sonra qadınlara hədiyyələr verilib, rayonun musiqi kollektivlərinin çıxışları tədbir iştirakçılarına xoş ovqat bəxş edib.

*Ardı 3-cü səhifədə*

## Babək rayonu



Beynəlxalq Qadınlar Günü Babək rayonunda da qeyd olunub. Rayon Mədəniyyət Evində keçirilən tədbirdə İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev çıxış edərək qadınları bayram münasibətilə təbrik edib. Bildirilib ki, ölkəmizdə qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi və dövlət səviyyəsinə qaldırılması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyev qadın hüquqlarının müdafiəsini öz siyasi fəaliyyətinin tərkib hissəsi hesab edib, milli qadın hərəkatının formalaşması üçün böyük işlər görüb. Azərbaycan qadını həkim, müəllim, mühəndis, dövlət qulluqçusu, ictimai-siyasi xadim olmaqla yanaşı, həm də qayğıkeş ana, vəfalı həyat yoldaşıdır.

Tədbirdə çıxışlar olub. Bildirilib ki, ölkəmizin hərtərəfli inkişafı Azərbaycan qadınlarının da ictimai həyatın bütün sahələrində fəal iştirakı üçün imkanlar yaradıb. Hazırda həyatımızın müxtəlif sahələrində çalışanların böyük bir hissəsini qadınlar təşkil edir. Elə muxtar respublikamızda da qadınların ictimai-siyasi sahədə fəal iştirakına geniş imkanlar yaradılır, qadın əməyi yüksək qiymətləndirilir. Babək rayonunun təhsil, səhiyyə, mədəniyyət və digər sahələrində çalışan qadınlarımız öz bilik və bacarıqları, işgüzarlıqları və ictimai-siyasi həyatdakı fəaliyyətləri ilə hər zaman seçilirlər. Bunun da nəticəsi olaraq qadınların əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.

Tədbirin bədii hissəsində Babək Rayon Mədəniyyət Evinin "Zabul" instrumental ansamblının ifa etdiyi musiqi nömrələri alqışlarla qarşılanıb.

Sonda qadınlara hədiyyələr təqdim olunub.

## Kəngərli rayonu

***Kəngərli rayonunda da Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib.***



Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov çıxış edərək bildirib ki, dövlət müstəqilliyimizin bərpasından ötən dövr ərzində Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilib, ölkəmizin sosial-iqtisadi, intellektual-mədəni potensialının artırılmasına dəyərli töhfələr verib. Dövlətimiz tərəfindən hər zaman qadın adı uca tutulur, onların hüquq və azadlıqları qorunur, zəhmətləri layiqincə qiymətləndirilir. Bu gün muxtar respublikamızın, eləcə də Kəngərli rayonunun dövlət və özəl qurumlarında işləyən qadınlar öz xidmətləri ilə ümumi inkişafımıza böyük töhfələr verirlər.

Qeyd edilib ki, rayonun yaradılmasından ötən dövr ərzində təhsil, səhiyyə və mədəniyyət sahələrində qazanılan uğurlarda qadınların rolu böyük olub.

Əhalisinin sayı 31 min 490 nəfər olan rayonda qadınların sayı 15 min 998 nəfərdir. Onlardan 1200 nəfəri dövlət müəssisələrində, 7 nəfəri məsul vəzifələrdə çalışırlar. Rayon qadınlarının 14-ü fəxri adlara layiq görülüb.

Kəngərli Rayon Birləşmiş Həmkarlar İttifaqının sədri Əfsanə Hüseynova, Çalxanqala kənd tam orta məktəbinin müəllimi Bəyimcan Babayeva çıxışlarında qadınlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə rayonun musiqi kollektivlərinin çıxışları olub, qadınlara hədiyyələr təqdim edilib.

## Ordubad rayonu

***Ordubad rayonunda da Beynəlxalq Qadınlar Günü münasibətilə bayram tədbiri keçirilib.***



Tədbirdə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov qeyd edib ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün uğurla həyata keçirilən dövlət qadın siyasəti ictimai-siyasi həyatda qadınlarımızın rolunu daha da artırıb. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada qadınların iştirakı təmin olunmasın. Məhz həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün muxtar respublikada, eləcə də Ordubad rayonunda qadınlar müxtəlif dövlət orqanlarında çalışır, bölgənin ictimai həyatında fəallıq göstərirlər.

Vurğulanıb ki, hazırda rayonda müxtəlif sahələrdə 1895 qadın çalışır. Onlardan 45 nəfəri məsul vəzifələri icra edir. Son illərdə rayonun ictimai həyatında fərqlənən qadınlardan 40 nəfər müxtəlif fəxri adlarla təltif olunub.

Bayram tədbirində Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri Qürbət Rzayevin, Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Vilayət Bağırovun, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Firuzə Əsgərovanın çıxışları olub. Çıxış edənlər zəriflik və gözəllik rəmzi olan qadın, ana adının tarix boyu Vətənimizdə həmişə uca tutulduğunu, Azərbaycan qadınının bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və yaşadılmasında mühüm xidmətlər göstərdiyini, Azərbaycanda qadına daim böyük hörmət bəslənildiyini qeyd ediblər.

Tədbir rayon Mədəniyyət Evinin "Dübəndi" instrumental ansamblının solistlərinin, "Nuray" rəqs qrupunun rəngarəng çıxışları ilə yadda qalıb.

Sonda qadınlara hədiyyələr təqdim edilib.

## Culfa rayonu

Beynəlxalq Qadınlar Günü münasibətilə Culfa rayonunda keçirilən tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev Azərbaycan qadınlarının öz dərin zəkaları və istedadları ilə bu gün xalqa və cəmiyyətə fədakarcasına xidmət etdiklərini bildirib.



Qeyd olunub ki, yeni əsrin Azərbaycan qadını milli dəyərləri öz simasında ehtiva etməklə bərabər, həm də müasir proseslərlə ayaqlaşaraq intellektual səviyyəsini daim artırır, yüksək təhsilə malik kamil şəxsiyyət kimi formalaşır. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada qadınların iştirakı təmin olunmasın. Qadınlarımız bu gün Azərbaycanımızda gedən ictimai-siyasi, iqtisadi, mədəni proseslərdə fəal iştirak edir, dövlətimizin hərtərəfli inkişafına öz töhfələrini verirlər.

Dövlətimizin qadınlara göstərdiyi böyük qayğı müqabilində qadınların da daim cəmiyyət həyatında aktiv fəaliyyət göstərəcəyinə əminliyini bildirən icra başçısı onları təbrik edib, ictimai işlərdə və şəxsi həyatda uğurlar arzulayıb.

Tədbirdə çıxış edən qadınlar onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirərək bundan sonra da Vətənimizin hərtərəfli inkişafı üçün əllərindən gələni əsirgəməyəcəklərini diqqətə çatdırıblar.

Sonra tədbirdə iştirak edən qadınlara hədiyyələr təqdim olunub.

Bayram tədbiri rayonun musiqi kollektivlərinin çıxışları ilə davam etdirilib.

## Şahbuz rayonu

Beynəlxalq Qadınlar Günü münasibətilə Şahbuz rayonunda keçirilən tədbirdə İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev bildirib ki, müasir dövrümüzdə qadınların həyatın müxtəlif sahələrində uğurlar əldə etməsinə səbəb onlara hərtərəfli dövlət qayğısının göstərilməsi və əməklərinə yüksək qiymət verilməsidir. Şahbuz rayonunun da qabaqcıl qadınlarının əməyi ölkə başçısı və muxtar respublika Ali Məclisinin Sədri tərəfindən yüksək qiymətləndirilib, onlara medallar və fəxri adlar verilib. Dövlət qayğısı sayəsində idarəetmədə və cəmiyyətdə bu gün qadınların rolunun artması onların əmək fəaliyyətində də özünü göstərir. Bu, muxtar respublikamızda qadın siyasətinin məqsədyönlü şəkildə həyata keçirilməsinin və ulu öndər Heydər Əliyev yolunun davam etdirilməsinin nəticəsidir.



Sonra qadınları Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin müəllimlərindən Növrəstə Xudiyeva, Məlahət Haqverdiyeva, "Oğuz səsi" qəzetinin redaktoru Şəhla Nəbiyeva təbrik edib və onlara göstərilən dövlət qayğısından danışıblar. Qeyd olunub ki, cəmiyyətdə özünəməxsus mövqeyi olan qadınlar ailədə tərbiyəçidirlər. Gənclərin hərtərəfli böyüməsində onların üzərinə böyük məsuliyyət düşür. Belə məsul vəzifəni yerinə yetirən qadınların yaxşı yaşayışı üçün müstəqil dövlətimizdə lazımi siyasət həyata keçirilir.

Rayonun bütün təşkilatlarından olan qadın nümayəndələrin iştirak etdiyi bayram tədbirində onlara hədiyyələr verilib.

## Sədərək rayonu

***Sədərək rayonunun mərkəzi Heydərabad qəsəbəsində keçirilən tədbiri rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açaraq qadınları bayram münasibətilə təbrik edib.***

Qeyd olunub ki, ulu öndər Heydər Əliyev həmişə Azərbaycan qadınının zəhmətini çox yüksək qiymətləndirir, qadınlara hər zaman böyük hörmət və ehtiramla yanaşırdı. 1998-ci ildə görkəmli dövlət xadiminin imzaladığı sərəncamla Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması bunun parlaq təcəssümüdür.



Bildirilib ki, əhalisinin 49 faizini, yəni 7654 nəfərini qadınlar təşkil edən Sədərək rayonunda qadınlar ictimai-siyasi həyatın bütün sahələrində təmsil olunurlar. Belə ki, burada təhsil işçilərinin 35, səhiyyə işçilərinin 56, mədəniyyət işçilərinin isə 45 faizi qadınlardan ibarətdir. Onlar öz bilik və bacarıqları, işgüzarlıqları və ictimai-siyasi həyatdakı fəaliyyətləri ilə hər zaman seçilirlər.

Tədbirdə Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımovun çıxışı olub. Bildirilib ki, zaman keçdikcə bütün dünyada olduğu kimi, Azərbaycan cəmiyyətində də qadının rolu daha da artır. O, ictimai-siyasi, iqtisadi, mədəni həyatın fəal iştirakçısına çevrilir.

Tədbirdə iştirak edən qadınlara hədiyyələr təqdim olunub.

Rayon Mədəniyyət və Turizm Şöbəsinin "Qeyrət qalası" bədii özfəaliyyət kollektivinin çıxışı maraqla qarşılanıb.

**Xəbərlər şöbəsi**

# Ali təhsilin magistratura səviyyəsinə qəbul imtahanının birinci mərhələsi keçirilib



***Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) martın 6-da 2016/2017-ci tədris ili üçün ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinə qəbul imtahanının birinci mərhələsini keçirib.***

Muxtar respublikada imtahan Naxçıvan Dövlət Universitetinin binalarında keçirilib. İmtahanda iştirak etmək üçün 758 bakalavr sənəd verib. İmtahan bütün binalarda eyni vaxtda – saat $13^{00}$-də başlanaraq $15^{30}$-da başa çatıb.

İmtahan prosesinin idarə olunması üçün komissiyada operativ qərargah fəaliyyət göstərib, gün ərzində imtahan mərkəzləri ilə müntəzəm əlaqə saxlanılıb və imtahan prosesinin gedişinə nəzarət olunub. Bakalavrların öz bilik və bacarıqlarını nümayiş etdirmələri üçün bütün imtahan mərkəzlərində normal imtahan şəraiti yaradılıb.

Bu mərhələdə bakalavrlara ümumi intellektin (məntiqi təfəkkürün) inkişaf səviyyəsinin yoxlanılması üçün 50 (5-i açıqtipli), informatika üzrə 25 (5-i açıqtipli) və xarici dil üzrə 25 (5-i açıqtipli) test tapşırığı təqdim olunub. Bakalavrın hər bir test tapşırığına düzgün cavabı bir balla qiymətləndirilir, səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir.

Dünəndən başlayaraq komissiyada imtahan protokollarının və cavab kartlarının emalı aparılıb. Artıq nəticələr elan edilib. Bakalavrlar imtahan nəticələri ilə TQDK-nın internet saytında və ya iş nömrələrini bütün mobil operatorlardan 7727 nömrəsinə göndərməklə tanış ola bilərlər.

**Xəbərlər şöbəsi**

***Son illər uşaqların, xüsusən məktəbyaşlı uşaqların sağlamlığının qorunmasına, onların müayinə və müalicəsinə, dispanserizasiyasının təşkilinə xüsusi diqqət yetirilir.***

# Şagirdlər arasında yaz mövsümünün tibbi müayinələrinə start verilib

Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq hər il yaz və payız mövsümlərində tam orta məktəblərin şagirdləri arasında profilaktika xarakteri daşıyan tibbi yoxlamalar aparılır.

Cari ildə şagirdlər arasında yaz mövsümünün tibbi yoxlamalarına əvvəlcədən hazırlıq işləri görülüb. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası tərəfindən şəhər məktəblərində müayinənin təşkili üçün əvvəlcədən cədvəllər tərtib olunub, məktəblərdə işləyən həkim və tibb bacıları xəstəxananın Poliklinika şöbəsinə dəvət edilərək keçiriləcək tədbir, xüsusən dispanserizasiya haqqında təlimatlandırılıblar. Şagirdlər əvvəlcədən məktəb həkimi tərəfindən müayinələrdən keçərək qruplaşdırılır, ixtisas həkimi tərəfindən yoxlanılır, xəstəlik aşkar olunan uşaqlar dispanser qeydiyyatına götürülür, zərurət yarandıqda ətraflı müayinə üçün stasionarın uyğun şöbəsinə göndərilirlər.

Hazırlıq işlərindən sonra martın əvvəlindən şagirdlər arasında tibbi yoxlamalara start verilib. Mərkəzi Uşaq Xəstəxanasının LOR, oftalmoloq, endokrinoloq, nevropatoloq, cərrah, pediatr, stomatoloq və uyğun profilli digər ixtisaslı mütəxəssislərdən təşkil olunmuş həkim briqadası Naxçıvan şəhərindəki Qızlar Liseyində, 1, 2, 3 və 4 nömrəli tam orta məktəblərdə 1593 şagirdi kompleks tibbi yoxlamadan keçirib. Xəstəliyə meyilli uşaqlar dispanser qeydiyyatına götürülərək göstəriş əsasında stasionar müalicəyə göndərilir. Şagirdlər arasında yaz mövsümünün tibbi yoxlamaları aprelin 1-dək davam etdiriləcəkdir.

Hazırda muxtar respublikanın rayonlarında da şagirdlər arasında tibbi yoxlamalar aparılır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Bu gün torpaq çərşənbəsidir

*Xalq təqviminə görə Boz ayın üçüncü çərşənbəsi torpaq çərşənbəsidir. Torpaq çərşənbəsi el arasında "qara çərşənbə", "quyruqlu çərşənbə", "yer çərşənbə" adı ilə də tanınır. Şərur rayonunun bəzi kəndlərində bu çərşənbəyə "kül çərşənbə"si, bəzi kəndlərdə isə "ölü çərşənbə"si də deyilir.*

Xalq arasında olan inama görə bu çərşənbədə torpaq oyanır və artıq əkinə hazır olduğunu göstərir. Torpaqdan otlar baş qaldırır. El arasında deyərlər ki, cəmrə torpağa düşür, torpaqdan buxar qalxır, deməli, torpaq isinib, yaz əkininə başlamaq olar. Xüsusən yazlıq arpa yubanmadan əkilməlidir. Xalq arasında olan inama görə bolluq, bərəkət rəmzi olaraq torpaq çərşənbəsində torpağa buğdadan toxum qoyulmalıdır. Ədəbiyyat materiallarında qeyd edilir ki, erkən orta əsrlərdə Azərbaycanda əkinçiliklə əlaqəli "İsfəndəkan" adlı bayram keçirirdilər. Sonralar bu bayram torpaq çərşənbəsi adlandırılıb. Yuxarıda qeyd etdik ki, torpaq çərşənbəsinə xalq arasında "qara çərşənbə" də deyilir. Çərşənbənin "qara çərşənbə" adlanması iki mənada izah edilir:



1. Xalq arasında olan adətə görə qara bayramı keçirilməmiş mərhumlara bu çərşənbə ərzində qara bayram keçirilir, ailələr yasdan çıxırlar. Bir sözlə, xalq axır çərşənbəyə və Novruza yasdan çıxmış halda getməyə çalışır.

2. Çərşənbənin qara adlanması qarın tamamilə əriməsi, torpağın qaralması ilə əlaqələndirilir. Ancaq biz birinci variant üzərində daha çox dayanırıq.

Bu çərşənbədən başlayaraq artıq çay, bulaq kənarlarında yarpız görünməyə başlayır. Həyət-bacada əsaslı işlərə başlanılır. Bağ-bağata əl gəzdirilir, həyət-baca səliqə-sahmana salınır. Bağ-bağatda ağacların qol-budağı budanır, artıq nə varsa yandırılır, ağacların dibi bellənir. Torpaq insanları yaşayış üçün zəruri olan qida ilə təmin edən real həyati varlıqdır. Torpaq deyir: öldür məni, dirildim səni. Bu tipli saysız-hesabsız folklor örnəklərimizin də məğzində torpağın bir yaradıcı ünsür kimi insanın yaşayışı və fəaliyyəti üçün əsas stimulverici güc olduğu dayanır. Bütün bunlar torpağın real həyatla, gündəlik məişətimizlə bağlı olduğunu göstərən amillərdir.

Bu çərşənbə ilə axır çərşənbənin arasında yerinə yetiriləcək işlərdən ən başlıcası qız-gəlinlərə aparılacaq İlaxır payının hazırlanmasıdır.

**Asəf ORUCOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

## Ahıllar evində tədbir keçirilib

Beynəlxalq Qadınlar Günü münasibətilə Şahbuz şəhərindəki Ahıllar evində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Qadir Əliyev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədova və Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Mətanət Məmmədova qadınları bayram münasibətilə təbrik edib, onlara cansağlığı arzulayıblar.

Vurğulanıb ki, qadınların hüquqlarının qorunması, sosial müdafiəsinin gücləndirilməsi, cəmiyyətə inteqrasiyası ölkəmizdə daim diqqət mərkəzində saxlanılır. Bu sırada xüsusi qayğıya ehtiyacı olan qadınlara müxtəlif sosial xidmətlərin göstərilməsini, məhdud fiziki imkanlı və evdar qadınların müvəqqəti məşğulluqlarını təmin etmək məqsədilə sosialyönümlü layihələrin həyata keçirilməsini, onların əl işlərinin satışına köməklik göstərilməsini qeyd etmək olar. Bu kateqoriyadan olan şəxslər mütəmadi olaraq evlərində ziyarət edilir, onların tibbi müayinədən keçmələri təmin olunur, məişət şəraitləri yaxşılaşdırılır.

Qeyd olunub ki, Ahıllar evinin qadın sakinlərinə də yüksək qayğı göstərilir, onların sosial reabilitasiyası və sağlamlıqlarının qorunması daim diqqət mərkəzində saxlanılır.

Tədbirdə Ahıllar evinin qadın sakinlərinə bayram hədiyyələri və gül dəstələri təqdim edilib.

Qadınlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 2016-cı ilin fevral ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 937324 | 93732 | 94080 | 100,4 |
| 2. | Ordubad rayonu | 1836302 | 183630 | 184285 | 100,4 |
| 3. | Babək rayonu | 3885526 | 388553 | 389091 | 100,1 |
| 4. | Sədərək rayonu | 404181 | 40418 | 40468 | 100,1 |
| 5. | Culfa rayonu | 1808980 | 180898 | 181089 | 100,1 |
| 6. | Kəngərli rayonu | 1324150 | 132415 | 132535 | 100,1 |
| 7. | Şərur rayonu | 2950286 | 295029 | 295169 | 100,0 |
| 8. | Naxçıvan şəhəri | 4075452 | 407545 | 407647 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 10221148 | 1021483 | 1006548 | 98,5 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **27443349** | **2743703** | **2730912** | **99,5** |

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2016-cı ilin fevral ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1089 | 65,3 | 65,6 | 100,5 |
| 2. | Şahbuz rayonu | 412 | 24,7 | 24,8 | 100,4 |
| 3. | Kəngərli rayonu | 769 | 46,1 | 46,2 | 100,2 |
| 4. | Culfa rayonu | 1174 | 70,4 | 70,5 | 100,1 |
| 5. | Naxçıvan şəhəri | 3580 | 214,8 | 214,8 | 100,0 |
| 6. | Şərur rayonu | 1770 | 106,2 | 106,2 | 100,0 |
| 7. | Babək rayonu | 1895 | 113,7 | 113,7 | 100,0 |
| 8. | Sədərək rayonu | 385 | 23,1 | 23,1 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 14166 | 850,1 | 849,5 | 99,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **25240** | **1514,4** | **1514,4** | **100,0** |

**Qeyd:** Fevral ayında texniki itki nəzərə alınmaqla daxil olan 25 milyon 240 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 514 min 400 manat olmuş, cəmi 1 milyon 514 min 400 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

*Naxçıvan Muxtar Respublika Stadionunda 1999-2001-ci illər təvəllüdlü məktəblilər arasında yüngül atletika üzrə muxtar respublika birinciliyi keçirilib.*

## Muxtar respublika birinciliklərinin qalibləri mükafatlandırılıb



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Yüngül Atletika Federasiyasının birgə təşkil etdiyi birinciliyin məqsədi muxtar respublikanın yeniyetmələrdən ibarət yüngül atletika üzrə yığma komandasının tərkibini formalaşdırmaq, həmçinin bu idman növünü inkişaf etdirmək və yeniyetmələri atletikaya cəlb etmək olub.

Birinciliyin açılış mərasimində çıxış edən gənclər və idman naziri Azad Cabbarov bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi idman siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, ölkəmiz dünyanın ən nüfuzlu idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edir, idmançılarımızın olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında qazandıqları medalların sayı ilbəil artır. Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına xüsusi qayğı göstərilir.

Yüngül Atletika Federasiyasının sədri Rövşən Məmmədov qeyd edib ki, bu gün muxtar respublikada idmanın inkişafı, gənclərin bu sahəyə cəlbi üçün hər bir şərait var. Naxçıvanda fəaliyyət göstərən federasiyaların da işi təmsil etdikləri idman növlərini təbliğ etməkdir. Federasiyamızın məqsədi yüngül atletikanı muxtar respublika yeniyetmələri və gənclər arasında kütləvi hala gətirməkdir.

Təhsil naziri Məmməd Qəribov isə vurğulayıb ki, məktəblilərin bu yaşda idmanla məşğul olmalarına məhz orta məktəbdən başlamaq lazımdır. Nazirlik bu istiqamətdə müəyyən addımlar atıb və məktəblilərin idmana yönəldilməsi üçün işlər görür.

Yarışın nəticələrinə əsasən, oğlanların mübarizəsində Heydər Əliyev adına Hərbi Liseyin kursantlarından Salman Gülüşov (100 metr), Sadiq Baxışəliyev (200 metr), Cəfər Quliyev (1500 metr), Sədərək rayonunun idmançılarından Elcan Mustafazadə (400 metr), Rəsul Yerdələn (800 metr) bütün rəqiblərini geridə qoyaraq finiş xəttinə birinci çatıblar.

Qızların yarışında isə hamıdan sürətli olan Güllü Cəfərova (100 metr, Kəngərli), Gülayə Cəfərova (200 metr, Sədərək) və Xatun Orucova (300 metr, Ordubad) muxtar respublika birincisi olublar. Gülayə Cəfərova həmçinin 500 metr məsafədə də rəqiblərini qabaqlayıb.

Sonda qaliblərə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Yüngül Atletika Federasiyasının diplomları və hədiyyələri təqdim olunub.

* * *

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində cüdo üzrə yeniyetmələr arasında Naxçıvan Muxtar Respublika birinciliyinə yekun vurulub.*



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyasının birgə təşkil etdiyi yarış iki gün davam edib və 10 çəki dərəcəsində 80-ə yaxın idmançı tatami üzərinə çıxıb.

Yarışın son günündə yarımfinal və final görüşləri keçirilib. Nəticəyə əsasən, Ayxan Abbasov (30 kiloqram), Abbas Məmmədov (34 kiloqram), Fuad Əşrəfli (38 kiloqram), Əli Əlizadə (41 kiloqram), Fəxrəddin Rüstəmov (46 kiloqram), Vüqar Allahverdiyev (50 kiloqram), Məhəmməd Əliyev (55 kiloqram), Elsevər Məmmədov (60 kiloqram), Murad Mustafayev (66 kiloqram) və Aqil Musayev (66+ kiloqram) həlledici qarşılaşmalarda qalib gələrək birinciliyin baş mükafatını qazanıblar.

Qalibləri Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Azad Cabbarov, Azərbaycan Cüdo Federasiyasının baş katibi Elmar Babanlı və Azərbaycan Cüdo Federasiyası Hakimlər Kollegiyasının sədri Fariz Hüseynov mükafatlandırıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Babək rayonunun Cəhri kənd sakini Cəfərov Qambay Yəhya oğlunun adına olan JN-2134B inventar nömrəli, 10305018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 194